Kaspi 2019.- 2-4 noyabr.- S.9.

# Abdulla Şaiqin Mənzil Muzeyində kitab təqdimatı



29 oktyabr 2019-cu ildə Abdulla Şaiqin Mənzil Muzeyində ədəbiyyatşünas alim, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Elmira Qasımovanın "Azərbaycan satirik mətbuatında gizli imzalar (1906-1920)" kitabının təqdimatı keçirildi. Tədbirdə, həm də ömrünün 50 ilindən çoxunu ədəbiyyatşünaslığın ən çətin və ən gərəkli sahələrindən biri olan mətnşünaslıq sahəsinə, xüsusilə satirik mətbuatda gizli imzaların araşdırılmasına həsr edən Elmira xanım Qasımovanın bu il yubileyinin olduğu vurğulandı.

Təqdimat mərasimində AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları, muzey nümayəndələri, Abdulla Şaiq adına kitabxananın işçiləri iştirak etdilər.

Tədbiri muzeyin direktoru Ülkər xanım Talıbzadə açdı. Qonaqları salamlayan Ülkər xanım belə tədbirlərin Abdulla Şaiqin Mənzil Muzeyində keçirilməsinin təsadüfi olmadığını, muzeyin qapılarının ədəbi və elmi ictimaiyyətin üzünə hər zaman açıq olduğunu bildirdi. Direktor onu da qeyd etdi ki, muzey ədəbiyyata, elmə yüksək qiymət verən Talıbzadələr ailəsinin ənənələrini bu gün də davam etdirir. Ülkər xanım təqdim olunan yeni kitab haqqında danışmaq üçün sözü Elmira xanım Qasımovaya verdi. Tədbirin Abdulla Şaiqin Mənzil Muzeyində təşkil olunmasından məmnun olduğunu bildirən müəllif kitabın ərsəyə gəlməsindən, mündəricəsindən söz açdı.

Çıxış üçün söz filologiya elmləri doktoru, prof. Alxan Bayramoğluna verildi. A.Bayramoğlu mətnşünaslıq işinin mötəbərliyindən, eyni zamanda çətinliyindən danışdı. Alim Elmira xanımın uzun illərə dayanan zəhmətlərinin şahidi olduğunu bildirdi. Bu işdə ona davamçısının - qızı Afaq Əliyevanın yardım etdiyini, Elmira xanımın onun timsalında yeni bir mətnşünas alim yetişdirdiyini xüsusi vurğuladı.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Güldəniz xanım Qocayeva Elmira xanımın bir alim kimi məziyyətlərindən söz açdıqdan sonra səmimi hisslərini ifadə edən essesini oxudu.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət xanım Qafqazlı Elmira xanımla uzun illərə söykənən dostluğundan, həyat və elm yollarında birgə fəaliyyətlərindən danışdı.

Elmira xanımın alim kimi məhsuldar fəaliyyətindən danışan filologiya elmləri doktoru Baba Babayev təqdimatı keçirilən "Azərbaycan satirik mətbuatında gizli imzalar(1906-1920)" kitabının tədqiqatçılar üçün əvəzsiz bir məxəz olduğunu vurğuladı.

Tədbir boyu monitorda E.Qasımovanın həyat və yaradıcılığını əks etdirən slayd nümayiş olundu.

Tədbirin sonunda Elmira xanım Qasımova muzey rəhbərliyinə və tədbir iştirakçılarına təşəkkür etdi və bu təqdimatın onun üçün bir hesabat mahiyyəti daşıdığını bildirdi.